Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Bəstəkar ömrünün əfsanəsi...

**Bəstəkar Arif Məlikovun 90 illiyi münasibətilə-mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Bəstəkar ömrünün əfsanəsi...” -** Bəstəkar Arif Məlikovun 90 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Bölmə I
## Həyat və yaradıcılığı

Ötən əsrdə Azərbaycan bəstəkarlıq məktəbinin çox qüdrətli nümayəndələri yaşayıb-yaradıb. Onların haqqında fikirləşəndə heyrətə gəlirsən: Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Cövdət Hacıyev və bu parlaq sıradan bizə qənimət və yadigar qalan, müasirimiz olan, dünyanı dolaşan şöhrətilə qürur duyduğumuz Arif Məlikov.

Arif Məlikov dünya simfonistlərinin nəhənglərindən sayılır. Məşhur musiqiçilərin Arif Məlikov yaradıcılığı ilə bağlı fikirlərini oxuduqca onun sənətinə marağın, pərəstişin, sözün əsl mənasında, vurğunluğun səbəblərini anlayırsan. Afif Məlikovun musiqisində fikir dərinliyi, gözəllik, qeyri-adilik, çoşqunluk, müasirlik və bunların vəhdətində orkestri ustalıqla cazibəyə salaraq təbii ahəngdə idarə etmək qabiliyyəti çox güclüdür. Əslində heç kimə qismət olmayan, məhz Arif Məlikovun taleyinə yazılmış bir ömrün əfsanəsi yarım əsrdən çoxdur ki, dünyanın sənətsevərlərini öz cazibəsində saxlayır.

Arif Cahangir oğlu Məlikov 1933-cü il sentyabrın 13-də Bakıda anadan olub. Uşaq vaxtlarından tez-tez valideynləri ilə birlikdə Opera və Balet Teatrına gedər, “Leyli və Məcnun”, “Əsli Və Kərəm”, “Koroğlu” tamaşalarına baxardı. Verdinin, Çaykovskinin operaları onu xüsusilə valeh edərdi. Uşaqlıqdan kitaba elə güclü meyl göstərib ki, çoxu onun gələcəkdə mütləq ədəbiyyatçı olacağını sanırmış. 14 yaşında ikən bəlli olur ki, bu uşağın musiqiyə güclü məhəbbəti var. Bunu hiss edən valideynlər ona tar alırlar. Əvvəllər musiqi duyumunun gücünə

tanış melodiyalar səsləndirən Arif müəllim sonralar onlara şəxsi improvizasiyalarını da əlavə edərmiş.

Müsahibələrinin birində ötənlərə nəzər salaraq deyərmiş: Bir gün küçədə təsadüfən Üzeyir Hacıbəylini gördüm. On beş yaşlı bir uşaq bəstəkarın arxasınca qarabaqara düşərək bir neçə məhəllə keçdim. Gözlərimi Üzeyir Hacıbəyliyə dikərək yol getdiyimdən qəflətən kiməsə toxundum. Bu zaman "korsan" sözünü eşitdim. Uzun müddət o günləri yada salıb şərafətlə "Mən kor deyildim". Mən görürdüm, canlı Hacıbəylini görürdüm". Üzeyir bəylə bağlı xatirə mənə dünyanın ən dərin kədər və sarsıntısını bağışladı. 1948-ci ilin payızında dahi bəstəkarın ölümündən çox təsirləndim. O ağır günlər mənim qəlbimdə dərin iz saldı.

1953-cü ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olan Arif Məlikov Qara Qarayevin sinfində dərs alır. Böyük bəstəkarın dərslərini, sinif saatlarını, söhbətlərini, tapşırıqlarını bütün təfərrüatı ilə yaddaşında saxlayan və onun tövsiyyələrinə həmişə əməl edən Arif Məlikov hələ birinci kursda oxuyarkən çoxlu musiqi əsəri bəstələmişdir.

Və beləliklə tələbəlik illəri onun bioqrafiyasına zəngin əsərlərlə həkk olunub. 1957-ci ildə bəstələdiyi "Nağıl" simfonik poeması böyük rezonans doğurdu. Bu əsər onun musiqi yaradıcılığının əsas göstəricisi oldu. "Nağıl" əsl teatr səviyyəsinə məxsus xüsusiyyətlərini, məqsəd aydınlığını, konkretliyi ifa edərək Azərbaycan musiqi mədəniyyətinə yeni istedadlı bir simanın gəldiyini təsdiqlədi. O zaman bu, nadir hadisə idi ki, tələbənin əsəri konservatoriya səhnəsində səsləndirilsin. Arif Məlikovun süitaları, simfonik poemaları görkəmli dirijorların iştirakı ilə nəinki Bakıda, az sonra Moskvada səsləndirildi. Bu da faktdır ki, Arif Məlikov

Azərbaycan simfonizmində yeni parlaq səhifələrin yaradıcılarından biridir. Konservatoriyanı bitirdikdən sonra bəstəkarın ikinci simfonik poeması "Füzuli" də müəllifə növbəti şöhrətini gətirdi. Arif Məlikov 26 yaşında respublika Dövlət mükafatına layiq görüldü.

Bəstəkarın şöhrəti dünyanı dolaşanda o hələ çox gənc idi. 1961-ci ilin yazında Leninqrad Dövlət Opera və Balet Teatrında bəstəkarın "Məhəbbət əfsanəsi" baleti tamaşaya qoyulanda müəllifin 28 yaşı vardı. Arif Məlikovun böyük türk şairi və dramaturqu Nazim Hikmətin "Məhəbbət əfsanəsi" pyesi əsasında bəstələdiyi eyniadlı baletdə ilk dirijor maestro Niyazi oldu. Bu baletə böyük həyəcanla baxan Nazim Hikmət övladı qədər sevdiyi və dostluq etdiyi Arif Məlikovun uğurlu yaradıcılığından çox fərəhlənib. Nazim Hikmət onu oğlu Mehmet qədər sevərmiş. Bakıda şairin çoxlu dostları vardı. Nazim Hikmət Bakıya yola düşəndə hamı onu öz evinə dəvət edirdi. Nazim isə "öncə oğluma dəyməliyəm"-deyərmiş.

Arif Məlikov da böyük şairə sevgisini əzəmətli əsərlə ifadə etdi. "Məhəbbət əfsanəsi" pyesi fəlsəfi bir əsərdir. Bütün bəşəriyyətə məxsus olan bu abidəyə səhnə həyatı vermək və misilsiz uğur qazanmaq özü bir əfsanəyə bənzəyir.

Arif Məlikovun istedadı "Məhəbbət əfsanə"si pyesi fəlsəfi bir əsərdir. Bütün bəşəriyyətə məxsus olan bu abidəyə səhnə həyatı vermək və misilsiz uğur qazanmaq özü bir əfsanəyə bənzəyir.

Arif Məlikovun istedadı "Məhəbbət əfsanəsi"-nin taleyinə xoş sabahlar yazdı. Əlli ildən artıqdır ki, bu balet dünya teatrlarının səhnəsində nümayiş olunur. Rusiyanın möhtəşəm sənət məbədi sayılan Böyük Teatr 50 ildən çoxdur ki, müntəzəm surətdə öz repertuarında "Məhəbbət əfsanəs"nə xüsusi yer

ayırıb. Arif Məlikov yeganə azərbaycanlı bəstəkardır ki, onun əsəri bu teatrda hər il tamaşaya qoyulur. Dünyanın 100-dən artıq teatrının məmnuniyyətlə təqdim etdiyi “Məhəbbət əfsanəsi”nin müəllifin fondunda 60-dan çox variantının köçürülmüş videolenti vardır. Bu baletin səhnəyə çıxarıldığı ölkələrin bəzilərinə diqqət edək: Çexiya, Macarıstan, Türkiyə, Bolqarıstan, Polşa, Almaniya, Finlandiya, Sloveniya, Amerika Birləşmiş Ştatları, Yaponiya, Misir, eləcə də keçmiş sovet respublikalarının əksəriyyəti.

Arif Məlikov yaradıcılığı boyu Nazim Hikmətə müraciət etməyi çox sevib. Böyük şairin poeziyasındakı qeyri-adilik, daxili etiraflar, hiss və diyğuların birbaşa vətən həsrəti ilə qovuşması bəstəkarı həmişə riqqətə gətirib. Bu səbəbdən də onun şeirlərinə üç silsilə-12 romans yazıb. Arif Məlikov 1986-cı ildə ikinci silsilə romanslarına görə Dövlət mükafatı laureatı adına layiq görülüb. Elə həmin il SSRİ Xalq artisti fəxri adını da alıb. Zəngin və çoxsahəli yaradıcılığı ilə nəinki azərbaycanlı həmkarlarından, hətta dünya bəstəkarlarından fərqlənən bəstəkar bir-birinin ardınca yaratdığı iri musiqi əsərləri “Vətən”, “Metamorfozalar”, “Axırıncı aşırım” simfonik poemaları, 8 simfoniyası, eləcə də digərləri Azərbaycan simfoniyasını irəli aparan gəminin sükanını dəyişərək ona yeni istiqamət, inkişaf və şöhrət də gətirdi. Müxtəlif ölkələrin konsert salonlarında və festivallarda ifa olunan bu simfoniyalar müəllifinə ardı kəsilməyən təşəkkür, təbrik, məktub və dəvətlər gətirdi.

Arif Məlikov paralel şəkildə müxtəlif janrda musiqi əsərləri üzərində işləməkdə çox mahir bəstəkardır. Təsəvvürə gətirin ki, Beşinci simfoniya hələ tamamlanmamış o, iki maraqlı kamera əsəri-fortepiano üçün “Anilik” və skripka üçün sonatanı başa çatdırdı. Bəstəkarın 1969-cu ildə Leninqrad Dövlət Opera

və Balet Teatrında "İkilikdə"("Bu torpaqda ikilikdə") adlı baleti tamaşaya qoyuldu. Az keçmədi "İki ürək" baletini tamamladı. Böyük və möhtəşəm əsərlərlə yanaşı, Arif Məlikov "Torpağın səsi" kantatasını, "Dalğalar" operattasını, fleyta və orkestr üçün konsertini, bir sıra kamera instrumental əsərlərini, bədii filmlərə ("Sehirli xalat", "26 Bakı komissarı", "Axırıncı aşırım" və s.), eləcə də dram teatrında səhnəyə qoyulmuş tamaşalara ("Torpağa sancılan qılınc", "Atabəylər", "Natəvan" və s.) musiqilər yazdı. Dəyərli musiqi əsərləri yaradan və bununla da təkcə Azərbaycana deyil, bütövlükdə bəşər mədəniyyətinə fədakarcasına xidmət edən Arif Məlikov 50-yə yaxın mahnının müəllifidir. Onun qanad verdiyi nəğmələri xalq artistləri Rəşid Behbudov, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqa məşhurlar ifa ediblər.

Ümumilli lider Heydər Əliyev Arif Məlikov yaradıcılığını çox sevirdi. Arif müəllim danışırdı ki, hər dəfə Moskvada əsərləri tamaşaya qoyulanda salonda tanış simanın təbəssümlü baxışlarını görəndə qürurlanırmış. Heydər Əliyevin diqqətindən həmişə ilham aldığını söyləyən Arif Məlikovu 1994-cü ildə ulu öndər özü ilə birlikdə Məkkə ziyarətinə aparıb. O günləri xatırlayan Arif Məlikov riqqətlə söyləyirdi ki, mənim üçün ən təəccüblü və maraqlı fakt idi. Ziyarət zamanı unudulmaz Heydər Əliyev qəfildən dedi: "Arif, bilirsən ki, səni bura niyə gətirmişəm? İstəyirəm ki, sən bu müqəddəs yerləri görəsən və bunun təsiri altında bir simfonik əsər yazasan". Heydər Əliyevin bu sözləri bəstəkarı heyrətə gətirib. Ulu öndərin qüdrətli duyumu, dərin hissiyyatı qarşısında heyrətini gizlədə bilməyən Arif Məlikovun sözləridir: "İnanmıram ki, adi adam Məkkədə simfonik musiqi haqqında fikirləşə bilsin. Simfonik əsər yazan mənəmsə, orada mən belə şeylər fikirləşmirdim. Çünki, Məkkə,

Mədinə hara, Quran hara, simfonik əsər hara?! Amma böyük şəxsiyyət uzaqgörənliklə hiss edirdi ki, məhz orada nəyisə mənimsəyib dəyərli simfonik əsər yazmaq mümkündür”.

Nəhayət, Arif Məlikov ulu öndərin arzusunu yerinə yetirdi. 2004-cü ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bəstəkarın Heydər Əliyevə ithaf etdiyi Səkkizinci simfoniyasının “Əbədiyyət”in ilk ifası tamaşaçıları sehrlədi.

Arif Məlikov yaradıcılığı dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib. Sövet dövründə də, müstəqilliyimizi qazandıqdan sonra da. Dövlət mükafatı laureatı, Xalq artisti, “İstiqlal” ordenli, Prezident təqaüdçüsü Arif Məlikovun olması böyük bəstəkara göstərilən diqqət və qayğının təcəssümüdür. Mükafatın təqdimetmə mərasimində bunu yüksək dəyərləndirən Arif Məlikov fərəhlə söyləmişdi: “Azərbaycan Prezidentinə, onun xanımına öz dərin təşəkkürümü bildirir və bu gün xatirəsini böyük ehtiramla yad etdiyimiz dahi şəxsiyyətin qarşısında baş əyirəm və onun surəti həkk olunan bu nişanı həmişə fərəhli günlərdə fəxrlə döşümdə aparacağam”.

Dahi Üzeyir Hacıbəylidən mənəvi, Qara Qarayevdən isə həqiqi dərs alan Arif Məlikov bu gün aramızda yoxdur. Gələcək bəstəkarların yetişməsində böyük əməyi olan Arif Məlikov uzun illər Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbür üzvü olmuşdur. Arif Məlikov yaradıcılığı Azərbaycan mədəniyyəti tarixində bütöv bir mərhələdir. Əlli ildən artıqdır ki, “Məhəbbət əfsanəsi” baleti ilə dünyanın möhtəşəm səhnələrini lərzəyə gətirən Azərbaycan bəstəkarının öz həyatı da yaradıcılığı da bir əfsanədir!

## Yubiley tədbirlərinin keçirilməsi

"Dünyanın hansı isə bir ölkəsində, şəhərində, xarici ölkə teatrlarında, konsert salonlarında, dinləyicilər mənim əsərlərimi alqışlayanda, belə hesab edirəm ki, Azərbaycanımı, xalqımı, mədəniyyətimi alqışlayırlar."

**Arif Məlikov**
**Xalq artisti, bəstəkar**

Azərbaycanın xalq artisti, respublika Dövlət mükafatı laureatı, professor Arif Məlikovun 90 illiyi tamam olur. Ömrünün 50 ildən artığını milli musiqi mədəniyyətimizin inkişafına xidmətdə yaşayıb, bəşər mədəniyyətinə bədii incilər bəxş etmiş Arif Məlikov yaşasaydı bu gün 90 illik yubileyini qeyd edəcəkdi. Bəstəkarın yaşadığı 40 illik sənət ömrü Azərbaycan musiqi mədəniyyəti tarixində bir epoxadır, işıqlı səhifədir. Onun keçdiyi sənət yolu əslində, milli musiqimizin inkişaf yoludur. Gəlin birlikdə bu sənət yoluna bir daha nəzər salaq.

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, SSRİ xalq artisti, Azərbaycanın xalq artisti Arif Məlikovun bu il 90 illik yubileyi respublika səviyyəsində yüksək səviyyədə qeyd olunur. Bəstəkarın 75 illik yubileyinin qeyd olunması ilə əlaqədar ölkə prezidenti İlham Əliyev sərəncam imzalamış, tanınmış həmvətənimizin yaradıcılığını haqlı olaraq, müasir Azərbaycan musiqi mədəniyyətinin parlaq səhifələrindən biri adlandırmışdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında görkəmli bəstəkar Arif Məlikovun yubileyi ilə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına əsasən ilk növbədə bəstəkarın həyat və yaradıcılığı ilə bağlı foto sərgi və kitab sərgisi hazırlanır. Sərginin hazırlanmasında məqsədimiz Arif Məlikovun yaradıcılığını geniş şəkildə gənc nəslə təbliğ etmək və sevdirməkdən ibarətdir. Hazırladığımız sərgini bir neçə başlıq altında təqdim edirik. Məsələn: “Arif Məlikov-90”, “Sənətdə yaşanan ömür”, “Sevimli bəstəkarımız”, “Bir ömrün əfsanəsi”, “Mən Azərbaycan xalqının oğluyam”, “Dünyanı gəzən heyrət”, “Yaxşı musiqi yazmaq mənim borcumdur”, “Sevimli bəstəkar”, “Sənətkarın şöhrəti”, “İstedad və zəhmət”, “Həyatımın əsas məqsədi musiqidir” və s.

“Arif Məlikov-90” adlı sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1.Başlıq-“Arif Məlikov-90”

2. Foto sərgi.

3.Kitabların nümayişi

4.Dövrü mətbuatda çap olunun qəzət və məqalələrin kartotekası

5.Görkəmki insanların bəstəkar Arif Məlikov haqqında söylədikləri.

## Görkəmli insanların Arif Məlikov haqqında söylədikləri

Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm.

**Heydər Əliyev,**
**Ümumilli lider**

Arif Məlikov bütün həyatı boyu Azərbaycana bağlı, onu ürəkdən sevən böyük şəxsiyyət idi. Əsl ziyalılıq və vətəndaşlıq mövqeyi, öz xalqına bağlılığı və dövlətinə sədaqəti ona ümumxalq məhəbbəti qazandırmışdır.

Arif Məlikovun yaradıcılıq irsi Azərbaycan xalqının mədəni sərvətidir. Zamanın yüksək sənət qarşısında irəli sürdüyü tələblərə cavab verən, insanları mənəvi kamilliyə səsləyən Arif Məlikov musiqisi əbədi yaşayacaqdır.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Arif Məlikov böyük akademik düşüncəyə malik bir musiqi xadimi idi. Hər zaman Azərbaycan elmini ləyaqətlə təmsil edən Arif Məlikovun yeni sənətşünaslar, musiqişünaslar nəslinin yetişməsində müəllim, elmi məsləhətçi kimi xüsusi rolu olub. O, Azərbaycan musiqi mədəniyyəti tarixində yüksək zirvələr fəth edib. Heç tərəddüd etmədən demək olar ki, Üzeyir Hacıbəylinin "Arşın mal alan", Qara Qarayevin "İldırımlı yollarla", Fikrət Əmirovun "Min bir gecə" əsərlərindən sonra Arif Məlikovun "Məhəbbət əfsanəsi" Azərbaycan xalqına və musiqi mədəniyyətinə dünya şöhrəti qazandırıb.

**İsa Həbibbəyli,**
**Əməkdar elm xadimi, professor**

Arif Məlikov istedadlı bəstəkardır. Musiqisi əsl professionaldır. Onun əsərində dərin musiqi dramaturgiyası, daxili inkişaf, dəqiqlik, qəhrəmanların xarakterini yüksək səviyyədə ifadə etmək məziyyətləri vardır. Orkestrin idarə edilməsində Arif Məlikovun nadir istedadı musiqiyə rəngarənglik və tamaşaçılara məftunluq gətirib".

**Dmitri Şostakoviç,**
**Bəstəkar**

Arif Məlikovun bir bəstəkar kimi formalaşmasının kökləri dərindir. O, sovet musiqisinin görkəmli klassiki Qara Qarayevin yetişdirməsidir. Öz müəlliminin təsiri ilə XX əsrin böyük novator bəstəkarı Dmitri Şostakoviçin musiqisinin dərinliyini duyub dərk etmişdir

**E.Abbasova,**
**Əməkdar İncəsənət xadimi, professor**

Arif Məlikovun yaradıcılığı azərbaycan xalqının tarixdən silinməyən abidəsidir.

**T.Hacıyev,**
**Əməkdar incəsənət xadimi, professor**

"Məhəbbət əfsanəsi" pyesi fəlsəfi bir əsərdir. Bütün insanlığa məxsus olan bu əsərə səhnə həyatı vermək və ağlagəlməz uğur qazanmaq özü bir əfsanəyə bənzəyir.

**Flora Xəlilzadə,**
**Əməkdar jurnalist, yazıçı-publisist**

# Foto sərgi














Bəstəkar Arif Məlikovun yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “Sevimli bəstəkarımız” adlı söhbətin keçirilməsi də məqsədəuyğundur. Keçirilən tədbirə bir çox qonaqlar dəvət alır. Kitabxanaçı tədbiri açıq elan edir: Bildiyiniz kimi, XXI əsrin böyük bəstəkarı Arif Məlikovun sənət taleyi çox uğurlu olmuşdur. Bir az da dəqiq desək, o, “xöşbəxt ulduz altında” dünyaya gəlmişdir. 1933-cü il sentyabrın 13-də. Hələ uşaq ikən Arif Məlikovun musiqiyə böyük maraq və həvəs göstərməsini nəzərə alan atası Cahangir müəllim və anası Püstə xanım balaca Arifi Asəf Zeynallı adına Bakı musiqi texnikumuna-zəmanəsinin görkəmli muğam ustası sayılan Mirzə Mənsur və Əhmədxan Bakıxanovun sinfində oxumağa cəlb edirlər. İlk musiqi əsərlərini də Arif Məlikov məhz, texnikumda oxuyarkən bəstələyir. Həmin illərdə o, piano üçün ilk prelüdlərini bəstələyir, tar üçün kiçik miniatürlər yazır. Və özü də onların ilk ifaçısı olur.

1951-ci ildə texnikumu bitirən gənc Azərbaycanın qədim musiqi beşiyi olan Şuşaya –musiqi məktəbində işləməyə təyinat alır. 2 il tar müəllimi kimi fəalyyət göstərəndən sonra Bakıya qayıdır. 1953-cü ildə sənədlərini Üzeyir Hacıbəyov adına Azərbaycan Dölət Konservatoriyasına təqdim edərək, imtahanlarını uğurla verir, və konservatoriyanın bəstəkarlıq fakültəsində böyük bəstəkarımız Qara Qarayevin sinfində musiqi təhsilini davam etdirir. Üçüncü kursda oxuyarkən gənc musiqiçinin "Suita"sı Azərbaycan Bəstəkarlarının I qurultayında uğurla səslənir. Qurultayda iştirak edən XX əsrin böyük bəstəkarı D.D.Şostakoviç bəstəkarın süitasına yüksək qiymət vermiş, onun parlaq gələcəyinə ümidvar olduğunu bildirmişdir. Və beləliklə, 1957-ci ildə Arif Məlikov "Nağıl" simfonik poemasını yaradır. Bu əsərin ilk ifaçısı maestro Niyazi olur. Əsər musiqisevərlərin böyük marağına səbəb olur və çox keçmir ki, bu poema Moskvada, Avropanın bir çox şəhərlərində böyük uğurla səsləndirilir. Və beləliklə, Konservatoriyanı Arif Məlikov "Birinci simfoniya"sı ilə başa vurur.

1959-cu ildə Arif Məlikov dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 400 illiyi şərəfinə "Füzuliyə ithaf" simfonik poemasını yaradır. Bu əsər ölməz şairin yubileyində səsləndirilir.

Tələbəsinin uğurlarını görən, teatr janrına meylini görən Qara Qarayev Arif Məlikova böyük türk şairi və dramaturqu Nazim Hikmətin "Məhəbbət əfsanəsi" baletinin liberettosunu göstərir. Və çox keçmir ki, cəmi iki il ərzində gənc bəstəkar Arif Məlikov həmin baleti tamamlayır. Balet üzərində işləyərkən o, tez-tez Nazim Hikmətlə Moskvada görüşür. Həmin görüşlər iki sənətkar arasında böyük sənət dostluğuna çevrilir.

1961-ci il martın 23-də indiki Sankt-Peterburq şəhərinin Dövlət Akademik Opera və Balet Teatrında ilk premyerası olan və dünyanın 70-ə yaxın ölkəsinin ən əzəmətli teatrlarının səhnəsində böyük müvəffəqiyyətlə göstərilən "Məhəbbət əfsanəsi" baleti Arif Məlikova dünya şöhrəti gətirir.

80-ci illərin əvvəli Arif Məlikovun yaradıcılığında yeni bir mərhələdir. O, yeni səhnə əsərini-"İki qəlbin dastanı" baletini yaradır. Bu əsər 1982-ci ilin dekabrında Ə.Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrında, bir il sonra isə Kuybışevdə opera və balet teatrında böyük uğurla nümayiş etdirilmişdir.

Arif Məlikov xeyli sayda Azərbaycan filmlərinə və teatr tamaşalarına musiqi bəstələmişdir. "Sehirli xalat", "26 Bakı komissarları", "Ulduzlar sönmür", "Axırıncı aşırım", "Qərib cinlər diyarında", "Rüstəm haqqında dastan", "Dənizdən işarə", "Səyavuş", "Rüstəm və Zöhrab" filmləri, N.Həsənzadənin "Atabəylər", İ.Əfəndiyevin "Natəvan", N.Xəzrinin "Torpağa sancılan qılınc" və "Əks səda" tamaşalarını misal göstərmək olar.

Arif Məlikov həm də gözəl dirijor idi. O, bir sıra şəhər və ölkələrdə dirijor rultu arxasında dayanmış və öz müəllif konsertlərini parlaq idarə etmişdir. Onun pedaqoji fəaliyyəti də həmişə diqqət mərkəzində olmuşdur. Uzun illər Azərbaycan Milli Konservatoriyasında istedadlı bəstəkarlar nəslinin yetişməsində yüksək əməyi olmuşdur. Onların arasında Yusif Mirişli, Ceyhun Allahverdiyev, Məhəmməd Ənsari, Kəmalə Əlizadə, Arzu Məmmədova, Nərminə Nağıyeva, Pikə Axundova kimi bəstəkarların adlarını çəkmək olar.

Söhbətin sonunda söz qonaqlara verilir. Daha sonra tədbirdə iştirak edən musiqi məktəbinin şagirdləri bəstəkar Arif Məlikovun musiqilərindən səsləndirirlər.

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, SSRİ xalq artisti, Azərbaycanın xalq artisti Arif Məlikovun yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də kitab icmalıdır. Arif Məlikov adlı foto albom Azərbaycan, ingilis, rus dillərində, 2017-ci ildə nəşr olunub.

Tədbir Ümumilli lider Heydər Əliyevin Arif Məlikovun yaradıcılıq gecəsində söylədiyi fikirlərlə başlayır.

Arif Məlikov Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin ən görkəmli xadimlərindən, sənətkarlarındandır. Onun yaradıcılıq yolunun çox hissəsi mənim gözümün qarşısında keçib. Mən Arif Məlikovun yazdığı əsərləri həmişə yüksək qiymətləndirmişəm və onun sənətə bağlılığını, yaradıcılığı ilə yaşadığını, öz əsərləri ilə Azərbaycan incəsənətini, musiqisini zənginləşdirdiyini həmişə hiss etmişəm.

Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm.

Kitabda həmçinin Arif Məlikov haqqında görkəmli insanların söylədiyi sitatlar, haqqında çıxış və məruzələr yer almışdır. Həmçinin Arif Məlikovun həyat və yaradıcılığını əks etdirən şəkillər, əsərlərindən ibarət fotolar əks olunmuşdur. Kitab çox yüksək səviyyədə, nəfis tərtibatda nəşr olunmuşdur. Ümid edirik ki, bu kitab bütün musiqisevərlərin, bəstəkarların, tələbələrin stolüstü kitabı olacaq.

Arif Məlikov yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirin birinci hissəsi çıxış və məruzələrlə başlayıb, ikinci

hissəsi isə bəstəkarın musiqilərinə bəstələnmiş musiqilərlə davam edir. “Üzeyir məktəbinin layiqli varisi” adlı tədbirin ssenarisini sizlər üçün təqdim edirik. Səhnədən bəstəkarın portreti asılır. Səhnə gül-çiçək dəstələri ilə bəzədilir. Aparıcılar səhnəyə daxil olur:

**I Aparıcı:** O, çoxlarından fərqli olaraq şöhrətə gedən yolu çox gənc yaşlarından fəth etdi. 26 yaşında yazdığı “Məhəbbət əfsanəsi” ilə milyonların məhəbbətini qazandı. Amma bu uğur heç də onu arxayın salmadı. Gecəsini gündüzünə qataraq daha böyük inam və inadla yazıb-yaratdı. Nə yazdısa ürəyinin səsi, qəlbinin hökmü ilə yazdı. Bir an da olsun belə sənətə ötəri həvəs kimi yanaşmadı. Bəlkə də onu xalqa sevdirən də içindəki düzlük, Üzeyir Hacıbəyli ənənələrinə sadiqlik, Azərbaycana, onun milli-mənəvi, mədəni sərvətlərinə olan sonsuz sevgi idi. Belə sevgiləri qazanmaq isə yalnız və yalnız Arif Məlikov kimi dühalara nəsib olur.

1933-cü il sentyabrın 13-də Bakıda anadan olan sənətkar, öz simfoniyaları ilə XX əsrin sonu–XXI əsrin əvvəlində milli simfonik musiqimizin əsas inkişaf istiqamətini müəyyən etmiş, bu sahədə aparıcı rol oynamış bəstəkarlardandır. Sənətdə ilk addımlarından o, musiqi aləmində bir ulduz kimi parlayıb, sahibi olduğu fitri istedadını sonrakı illərdə cilalayıb kamilləşdirdiyi peşəkarlığı ilə tamamlayaraq yeni zirvələrə yüksəlib.

Unudulmaz sənətkar belə möhtəşəm əsərləri - “Metamorfozlar”, Nazim Hikmətin sözlərinə 2 vokal silsilə, xalq çalğı alətləri orkestri üçün əsərlər, 7 nömrəli simfoniya, “Azərbaycan” balladası, 8 nömrəli simfoniya və digər teatr tamaşalarına yazdığı musiqiləri ilə çoxdan əbədiyaşarlıq qazanıb.

A.Məlikov, eyni zamanda bir sıra Azərbaycan filmlərinə musiqi yazmış bəstəkarlardandır. Onların sırasında "Sehrli xalat", "Axırıncı aşırım", "Ulduzlar sönmür", "Qərib cinlər diyarında" və s. xüsusi qeyd etmək olar.

Görkəmli bəstəkarın xalqımız tərəfindən böyük rəğbətlə qarşılanan, sevilən əsərləri eyni həyəcan və coşqu ilə dünyanın hər bir ölkəsində dinlənilir, səhnələşdirilir. Arif Məlikov musiqisi dünyanın bir çox ölkəsində təmsil olunaraq rəğbət qazanır. Buna misal olaraq bəstəkarın hələ gənc yaşlarında yazdığı, dünyanın 60-dan çox ölkəsinin səhnələrini gəzən "Məhəbbət əfsanəsi" baletini göstərmək olar.

Məşhur bəstəkar Dmitri Şostakoviç "Məhəbbət əfsanəsi" baleti haqqında dəyərli fikirlər söyləyərək deyib: "Arif Məlikov istedadlı bəstəkardır. Musiqisi əsl professionaldır. Onun əsərində dərin musiqi dramaturgiyası, daxili inkişaf, dəqiqlik, qəhrəmanların xarakterini yüksək səviyyədə ifadə etmək məziyyətləri vardır. Orkestrin idarə edilməsində Arif Məlikovun nadir istedadı musiqiyə rəngarənglik və tamaşaçılara məftunluq gətirib".

Əgər iri janrlarda bəstəkar alovlu bir natiq kimi geniş kütlələrə, milyonlara müraciət edərək ümumbəşəri problemlərdən, hamımızı narahat edən həyat məsələlərindən söz açırsa, miniatür əsərlərində – romanslar, fortepiano pyeslərində o, qəlbinin dərinliklərində gizlədiyi ən məhrəm duyğuları, lirik düşüncələri ilə dinləyicilərin ürəyinə yol tapır.

XX əsrin məktəblərinə, cərəyan və təmayüllərinə gözəl bələd olan, müasir kompozisiya texnikasına mükəmməl yiyələnən bəstəkar ən yeni yazı üsullarından sərbəst istifadə edir. Lakin müəllimi Qara Qarayev kimi, o da əvvəla, ən yeni vasitələrin məqsədə çevrilməsinə heç vaxt yol vermir, ikincisi isə heç vaxt möhkəm milli zəmindən, xalq musiqisinin sağlam köklərindən, həmişəyaşar qaynaqlardan ayrılmır. Vaxtilə təhsilini Asəf Zeynallı adına məktəbin xalq çalğı alətləri şöbəsindən başlayan, Əhməd Bakıxanov, Mansur Mansurov

kimi sənətkarlardan tar ifaçılığının sirlərini öyrənən, öz barmaqlarını tara toxunduraraq muğamların, xalq musiqisi nümunələrinin cövhərini qəlbinə hopduran A.Məlikov bəstəkar kimi püxtələşib yetişdikdən sonra öz əsərlərində bu milli musiqi incilərinə yeni həyat vermişdir.

**II Aparıcı:** Onun bir bəstəkar kimi qazandığı nailiyyətlər özlüyündə təkcə musiqimizdə deyil, ümumilikdə, milli-mədəni tərəqqi naminə göstərilən xidmətlər hesab edilməlidir.

A.Məlikov həm də təcrübəli müəllim kimi böyük nüfuz sahibi idi. Onun sinfində təhsil alan onlarla istedadlı gənc bəstəkar öz müəllimindən sənətin sirlərini, kompozisiyanın əsaslarını öyrənməklə yanaşı, bəlkə bundan daha vacib olan keyfiyyətləri – Vətənə, xalqa məhəbbət hissini, milli-mənəvi sərvətləri göz bəbəyi kimi qorumaq, klassik ənənələrimizi yaşadıb inkişaf etdirmək məsuliyyətini də əxz edib, onun himayəsi altında böyük həyat məktəbi keçib.

Böyük bəstəkar həm də bir vətəndaş kimi Azərbaycanımızın bütün çətin məqamlarında sözünü deməyi, vətəndaşlıq mövqeyini ortaya qoymağı bacarıb. Xalqımızın ağır günündə o, qələmə sarılaraq 20 Yanvar faciəsini əks etdirən "İttiham edirəm" kitabını yazıb. Kitabda bu hadisələrdə günahı olan insanları cəsarətlə ifşa edərək, xalqımızın ağrı-acılarını dünyaya çatdırıb.

Arif Məlikov 2019-cu il mayın 9-da 85 yaşında dünyasını dəyişib və I Fəxri xiyabanda dəfn olunub.

**F.Köçərli adına Respublika Uşaq kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə əlaqədar kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

Arif Məlikov = **Arif Melikov** = Ариф Меликов. - [S. l. : s. n.], 2017. - 392 s.

**Baxşiyeva-İbrahimova A**. Arif Məlikov: tarix və müasirlik : Bəstəkarın kamera-instrumental və kamera-vokal musiqisi əsasında. - Bakı : Şərq-Qərb, 2020. - 312 s.

Mənalı ömrün salnaməsi : Bilqeyis xanım Məmmədova-Qarayeva haqqında xatirələr. - Bakı : Şərq-Qərb, 2017. - 128 s.

**Dövrü mətbuatda**

A. C. Məlikovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13 sentyabr 2018-ci il) // Azərbaycan : qəzet. - 2018. - 14 sentyabr. - № 205. - S. 2.

A.C.Məlikovun Heydər Əliyev mükafatı ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamı (5 may 2009-cu il) // Azərbaycan. - 2009. - 13 may. - S. 1.

A.C.Məlikovun xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (17 may 2019-cu il) // Azərbaycan : qəzet. - 2019. - 18 may. - № 108. - S. 2.

**Allahverdiyev C**. Arif Məlikovun Fortepiano üçün pyeslər albomu // Mədəni Maarif. - 2011. - № 1. - S. 66-68.

**Anar.** Böyük bəstəkar, böyük vətəndaş // Ədəbiyyat qəzeti. - 2019. - 11 may. - № 16. - S. 3 ; 525-ci qəzet. - 11 may. - № 74. - S. 11. - 9 may 2019.

Arif Cahangir oğlu Məlikov : nekroloq // Respublika. - 2019. - 11 may. - № 102. - S. 5.

Arif Məlikov **:** Roma dönəminə aid antik teatrda on minlərlə tamaşaçı "Məhəbbət əfsanəsi"nə baxırdı... : **Arif Məlikov**la müsahibə / söhbətləşdi A. Turan // Ədəbiyyat qəzeti. - 2018. - 13 oktyabr. - № 38. - S. 16-17.

Arif Məlikov**un əsərləri** Azərbaycan mədəniyyətinin qızıl fonduna daxildir : Bəstəkar **Arif Məlikov**un 90 illik yubileyi və Milli Musiqi Günü münasibətilə Azərbaycan musiqi ictimaiyyətinə təbrik // Azərbaycan : qəzet. - 2023. - 19 sentyabr. - № 202. - S. 2.

**Baxşıyeva A**. Musiqisi ölməz, xatirəsi unudulmaz... : Böyük Bəstəkar Arif Məlikovun 90 illiyi tamam olur // 525-ci qəzet. - 2023. - 13 sentyabr. - № 163. - S. 12.

**Bayramov Ə**. Azərbaycan musiqi sənətinin canlı əfsanəsi : Arif Məlikov // Xalq qəzeti. - 2012. - 26 yanvar. - № 19. - S. 6.

**Bayramova Z**. Arif Məlikov - 85 : Azərbaycan Bəstəkarlıq məktəbinin böyük sənətkarı // Səs. - 2018. - 22 sentyabr. - № 179. - S. 11.
**Bayramova Z**. Böyük bəstəkar Arif Məlikov - milyonların sevimlisi // Səs. - 2021. - 11 sentyabr. - № 164. - S. 12.

**Bayramova Z**. Musiqi xəzinəsinin qızıl incilərini yaradan bəstəkar // Səs. - 2023. - 14 sentyabr. - № 166. - S. 10.

**Əhmədalılar T**. Arif Məlikov həqiqəti : həmişə təzə, hər an real məhəbbəti əfsanələşdirilmiş çağdaşımızın yubiley gecəsindən... // Mədəniyyət. - 2013. - 18 oktyabr. - № 74. - S. 6.

**Fərəcova H**. Arif Məlikovun rəsmlərinin musiqi ilə vəhdəti // Kaspi. - 2013. - 19 aprel. - № 68. - S. 12.

**Fərəcova Z**. Əfsanəyə dönən bəstəkar ömrü // Azərbaycan : qəzet. - 2023. - 13 sentyabr. - № 197. - S. 9.

**Fərəcova Z**. Musiqi sənətimizin əfsanəsi : Arif Məlikov - 85 // Azərbaycan : qəzet. - 2018. - 25 sentyabr. - № 214. - S. 7.

**Hüseynov Ə**. "Arif Məlikov" kapriççiosu // 525-ci qəzet. - 2019. - 26 iyun. - № 91. - S. 20.

**Xəlilzadə F**. Bəstəkar ömrünün əfsanəsi : Arif Məlikov // Mədəni Həyat. - 2013. - № 9. - S. 26-28.

**Xəlilzadə F**. Bəstəkar ömrünün əfsanəsi... : Arif Məlikov haqqında // Mədəniyyət. - 2011. - 7 sentyabr. - № 65. - S. 13.

**Xəlilzadə F**. Böyük ömrün sonsuzluğu : Heydər Əliyev mükafatı laureatları : Arif Məlikov // Azərbaycan. - 2009. - 22 may. - S. 6.

**Kazımzadə A**. Kinomuz, musiqimiz // Mədəniyyət. - 2009. - 18 sentyabr. - N 68. - S. 10.

**Qismət İ**. Şərəfli bəstəkar ömrü : Arif Məlikov - 80 // Mədəniyyət. - 2013. - 6 sentyabr. - № 63. - S. 10.

**Qurbanlı R**. Nazim Hikməti heyrətləndirən azərbaycanlı : Qara Qarayevin istedadlı yetirməsi // Xalq qəzeti. - 2023. - 13 sentyabr. - № 197. - S. 10.

**Mədəniyyətimizin** Arif Məlikov itkisi : Mayın 9-da dünyasını dəyişən görkəmli bəstəkar I Fəxri Xiyabanda dəfn olunub // 525-ci qəzet. - 2019. - 11 may. - № 74. - S. 11.

**Məhərrəmova T**. Aramızda olan dahi və ya 27 yaşında dünya şöhrəti qazanan bəstəkar : Arif Məlikov haqqında // Kaspi. - 2017. - 14 sentyabr. - № 149. - S. 13.

**Məhərrəmova T**. Əfsanəyə çevrilən bəstəkar : O, "mən xoşbəxt sənətkaram" deməyi haqq edirdi // Kaspi. - 2019. - 11-13 may. - № 85. - S. 7.

**Nağıyev S**. Ali mükafatın 3 sahibi // Mədəniyyət. - 2009. - 15 may. - S. 3.

**Neymətli Y**. Arif Məlikov - əbədiyyətə qovuşan əfsanə // 525-ci qəzet. - 2023. - 12 sentyabr. - № 162. - S. 12-13.

**Süleymanova N**. Musiqi mədəniyyətimizin görkəmli siması, bəstəkar, Xalq artisti Arif Məlikov // Respublika. - 2023. - 13 sentyabr. - № 197. - S. 11.

**Zümrüd.** Əsərləri dünyada ən çox səslənən bəstəkar : Bu gün Azərbaycanın məşhur bəstəkarı, xalq artisti, professor Arif Məlikovun doğum günüdür // Səs. - 2014. - 13 sentyabr. - № 169. - S. 12.

**Bəstəkar ömrünün əfsanəsi...**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**